*Peşə təhsili və insan kapitalı. Cild 4, №4, 2021 s.61-64*

# AZƏRBAYCANIN XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN TƏNZİMLƏNMƏSİ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ



**Samirə Allahverdiyeva,**
*Qərbi Kaspi Universitetinin dissertantı*
*e-mail: samira.adiu@gmail.com*

**UOT:** 33;338

**Xülasə.** *Ölkəmizin qarşısında duran vəzifə hər şeydən öncə beynəlxalq iqtisadi əməkdaşlığı genişləndirmək deyil, mövcud potensialımıza uyğun olaraq dinamik müqayisəli üstünlüklərə əsaslanaraq qlobal təsərrüfata üzvi şəkildə qovuşmaqdır. Belə ki, müasir dövrdə xarici iqtisadi əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi problemi ölkə iqtisadiyyatının strukturunun yenidən qurulmasının həyata keçirilməsi ilə qarşılıqlı şəkildə həll edilməlidir.*

***Açar sözlər:*** *xarici ticarət dövriyyəsi, idxal və ixrac əməliyyatları, real bazar, ümumi daxili məhsul, qeyri-neft sektoru.*
***Key words:*** *foreign trade turnover, import and export operations, real market, gross domestic product, non-oil sector.*
***Ключевые слова:*** *внешнеторговый оборот, операции импорта и экспорта, реальный рынок, валовой внутренний продукт, ненефтяной сектор.*

Bu gün tərəddüdsüz şəkildə qeyd edə bilərik ki, Azərbaycanın xarici ticarət əlaqələrinin qurulması istiqamətində davamlı işlər görülür və bu prosesin genişləndirilməsi istiqamətində yeni addımlar atılır. Xarici ticarət konsepsiyası və siyasəti Azərbaycanın xarici siyasətini həm ikitərəfli formada, həm də beynəlxalq təşkilatlar çərçivəsində çox uğurlu vəziyyətə gətirib. Bu, təbii ki, düşünülmüş siyasətin nəticəsidir. Ölkəmizin strateji xətti var və bu xətlə yeni ideyaların hazırlanması, bu ideyaların tətbiq edilməsi yolunda böyük addımlar atılır. Son illər ərzində aparılan işlər onu göstərir ki, Azərbaycanın dünyadakı mövqeləri daha da möhkəmlənir **(cədvəl 1).**

***Cədvəl 1.***
***Xarici ticarət dövriyyəsi (faizlə)***
***Foreign trade turnover (percent)***

| İllər<br>Years | Dövriyyə<br>Turnover | İdxal<br>İmport | İxrac<br>Export |
|---|---|---|---|
| Əvvəlki ilə nisbətən faktiki qiymətlərlə *)<br>Current orices, as per cent to previous year | | | |
| **2010** | 106,5 [1)]<br>120,0[2)] | 105,0 [1)]<br>105,0 [2)] | 106,9 [1)]<br>125,3 [2)] |
| **2011** | 104,0 [1)]<br>103,9 [2)] | 145,3 [1)]<br>145,3 [2)] | 92,6 [1)]<br>88,7 [2)] |
| **2012** | 95,5 [1)]<br>89,3 [2)] | 96,9 [1)]<br>96,9 [2)] | 95,1 [1)]<br>86,2 [2)] |
| **2013** | 102,7 [1)]<br>106,3 [2)] | 109,1 [1)]<br>109,1 [2)] | 100,7 [1)]<br>105,1 [2)] |
| **2014** | 95,7 [1)]<br>94,1 [2)] | 85,4 [1)]<br>85,4 [2)] | 99,0 [1)]<br>98,0 [2)] |
| **2015** | 99,8 [1)]<br>96,6 [2)] | 99,5 [1)]<br>99,5 [2)] | 99,9 [1)]<br>95,4 [2)] |
| **2016** | 92,7 [1)]<br>112,9 [2)] | 89,6 [1)]<br>89,6 [2)] | 94,4 [1)]<br>129,7 [2)] |
| **2017** | 89,3 [1)]<br>85,2 [2)] | 83,8 [1)]<br>83,8 [2)] | 92,9 [1)]<br>86,1 [2)] |
| **2018** | 100,5 [1)]<br>96,0 [2)] | 100,2 [1)]<br>100,2 [2)] | 100,6 [1)]<br>93,7 [2)] |
| **2019** | 96,1 [1)]<br>96,8 [2)] | 93,5<br>93,5 | 97,6<br>98,8 |
| **2020** | 78,1[1)]<br>72,8 [2)] | 64,0<br>64,0 | 88,0<br>78,9 |

1. statistika məlumatı [1)] (data of statistics [1)])

2. gömrük məlumatı [2)] (data of customs [2)])

İndekslər qiymət amili nəzərə alınmaqla hesablanmışdır.

**Mənbə:** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi saytı:*

*https://www.stat.gov.az/source/trade/*

Azərbaycan Respublikasının 2019-cu il üzrə idxal və ixrac əməliyyatlarının fərqli şəkildə araşdırmalarını apardım və ölkələr üzrə hansı faiz aralığında ixracı və idxalının gerçəkləşdirdiyini **Diaqram 1** və **2** şəklində tədqiqatıma əlavə etdim. Buradan da göstəriciləri aydın şəkildə görmək mümkündür. Belə ki, diaqramlarda digər ölkələrlə ticarət əlaqələrinin faizlə həyatda reallaşdırılması qeyd edilmişdir.




***Diaqram 1.***
***İxrac əməliyyatlarında əsas ölkələr (faizlə xüsusi çəkisi)***




***Diaqram 2.***
***İdxal əməliyyatlarında əsas ölkələr (faizlə xüsusi çəkisi)***

Diaqram 1 və 2-nin statistik göstəricilərini daha dəqiq faiz göstərici ilə **cədvəl 3** və **4**-dən görmək olar:

***Cədvəl 3.***

| | |
|---|---|
| İtaliya | 34,73 |
| Türkiyə | 9,98 |
| Portuqaliya | 7,89 |
| İsrail | 5,97 |
| Çexiya | 5,52 |
| Hindistan | 4,84 |
| Vyetnam | 4,48 |
| Gürcüstan | 3,94 |
| Rusiya | 3,82 |
| Tayland | 3,47 |
| digər ölkələr | 15,36 |

***Cədvəl 4.***

| | |
|---|---|
| Rusiya | 11,8 |
| Türkiyə | 9,03 |
| Çin | 8,55 |
| Avstraliya | 7,87 |
| İran İslam Respublikası | 7,66 |
| Amerika Birləşmiş Ştatları | 6,24 |
| Belarusiya | 4,56 |
| Almaniya | 4,38 |
| Norveç | 4,18 |
| Kanada | 3,57 |
| digər ölkələr | 32,16 |

Xarici ticarət konsepsiyasının inkişaf mərhələlərinə uyğun olaraq iki dövr üçün işlənib hazırlanması daha məqsədəuyğundur. Bu dövrləri aşağıdakı kimi qruplaşdırmaq olar:

– *keçid dövrünün xarici ticarət konsepsiyası;*

– *real bazar dövrünün xarici ticarət konsepsiyası.*

1. Keçid dövrü öz mahiyyəti etibarı ilə respublikada bazarın formalaşması və həmin keyfiyyət aspektində real bazar münasibətlərinin təşəkkülü ilə başa çatmalıdır.

2. Real bazar münasibətlərinin təşəkkülü prosesi başa çatdıqdan sonra ölkədə həm iqtisadi bazisin sosial-iqtisadi mahiyyətində, həm də cəmiyyətin siyasi təşkilində köklü keyfiyyət dəyişiklikləri baş verməklə, ölkənin dünya iqtisadiyyatına funksional inteqrasiyası genişləncəkdir. Göründüyü kimi, xarici ticarətin konseptual əsasları ölkənin inkişaf mərhələlərinə uyğun şəkildə formalaşdırılmalı və metodoloji prinsiplərin tarixi səciyyə daşıdığı birmənalı şəkildə qəbul olunmalıdır. Ölkələrin inkişaf yollarının seçilməsi, son dərəcə mühüm məsələlərdən biri olması dünya ölkələrinin təcrübəsindən açıq formada məlumdur. Ümumiləşdirərək qeyd edə bilərik ki, milli iqtisadiyyatın xarici amillərlə sıx əlaqəliliyi və qarşılıqlı asılılığı baxımından 3 inkişaf modelini fərqləndirmək olar. Bu modellər aşağıdakılardır:

– *iqtisadiyyatın ixrac yönümünün yüksəldilməsini nəzərdə tutan inkişaf modeli;*

– *idxalı əvəz edəcək istehsal sahələrinin inkişaf modeli;*

– *iqtisadi inteqrasiya modeli.*

Nəzərinizə çatdırmaq istərdim ki, bu modellərdən hər hansı birinin seçilməsi öz mahiyyəti etibarı ilə xarici ticarət konsepsiyasının formalaşdırılması deməkdir.

Yuxarıdakıları nəzərə alaraq, Azərbaycanın mövcud potensialı baxımından bunların hansının daha mütərəqqi və məqsədəuyğun olduğunu araşdırmaq çox önəmlidir. Beləliklə, ixracyönümlü inkişaf müasir beynəlxalq iqtisadi münasibətlər sistemində mühüm yer tutan modellərdən biridir və milli iqtisadiyyatın göstərilən istiqamətdə inkişafını tələb edir. Buna baxmayaraq, Azərbaycan Respublikası bu modeli tətbiq etməsi üçün bir sıra problemlərlə qarşılaşır ki, bu problemlərin də həlli çox önəmlidir. Bu problemlər isə aşağıdakılardan ibarətdir:

1. Dünya bazarında baş verən proseslərlə əlaqədar yaranmış vəziyyət məhsul və xidmətlərin ixracında tamamilə yeni amillərə və parametrlərə əsaslanmağı tələb edir. Çünki müasir texnika və texnologiyanın tətbiqi yeni mallar istehsal artımının və rəqabətin qeyri-müəyyənliyi dünya standartlarına cavab verməyən məhsullar istehsal edən Azərbaycanın ixrac imkanlarını xeyli məhdudlaşdırır.

2. İxracyönümlü inkişaf rəqabətə davam gətirməyi, üstünlüklər yaratmağı tələb edir. Yəni infrastruktura, marketinq və yeni texnologiyaların əldə edilməsi məqsədi ilə fasiləsiz olaraq investisiya qoyuluşları həyata keçirilməlidir. Aydındır ki, müasir şəraitdə maliyyə-valyuta resursları, hətta minimal tələbləri ödəmək iqtidarında olmadığı bir dövrdə göstərilən istiqamətlərdə irihəcmli kapital qoyuluşlarının həyata keçirilməsi mümkün deyildir.

3. Bunlarla yanaşı, hətta bütün imkan və vasitələrin mövcudluğu şəraitində belə, ixracyönümlü inkişaf modelinin tətbiqi və onun rolunun yüksəldilməsi istənilən nəticəni verə bilməz. Çünki milli iqtisadiyyatın ixrac yönümünün gücləndirilməsi xarici bazarlardan ixrac asılılığı yaradır və nəticədə daxili sosial-iqtisadi situasiyaya güclü təsir göstərir. Məlumdur ki, mənəvi tərəf müqabillərində də iqtisadi situasiyanın pisləşməsi zəncirvari reaksiya doğurmaqla, ölkədə staqflyasiyanı (inflyasiya və işsizliyin eyni anda baş verməsi halı) sürətləndirməklə böhranlı vəziyyət yaradır. Bu səbəbdən də ixracat prosesinin əsas hissəsinin yönəldiyi xarici bazarlara əməli yardım edilməsi problemi meydana çıxır ki, bu da qlobal qarşılıqlı asılılığı yeni keyfiyyət aspektləri kimi səciyyələndirə bilər.

Baş verən proseslərdən belə qənaətə gələ bilərik ki, Azərbaycan iqtisadiyyatının dünya təsərrüfat sistemində iştirakı, əsasən xarici ticarət və kapitalın idxalı üzrə baş verir, xarici iqtisadi fəaliyyətin digər mütərəqqi formalarından (elmi-texniki əməkdaşlıq, xarici turizm, SİZ-lərdə əməkdaşlıq, konsessiya sazişləri əsasında əməkdaşlıq və s.) ya zəif istifadə olunur, ya da heç istifadə olunmur. Çünki statistikaya nəzər saldıqda aydın şəkildə görə bilərik ki, neft və neft məhsulları istisna olmaqla, digər məhsullar üzrə xarici ticarətdə mənfi saldo ilbəil artır. Əgər qeyri-neft sektorunda sağlamlaşdırma və yenidən-qurma işləri gücləndirilməsə, yaranmış mənfi statistikanın daha da böyüyəcəyi qaçılmazdır. Son illərə nəzər yetirdikdə görürük ki, ixracda xammal və aralıq məhsulların xüsusi çəkisi 85%-i keçmiş, son məhsulların xüsusi çəkisi müvafiq olaraq azalmışdır. İdxalda isə, əksinə, son məhsulların, xüsusilə, istehlak mallarının, maşın və avadanlıqların xüsusi çəkisi artmışdır. Bundan əlavə, onu da qeyd etmək istərdim ki, xarici ticarət əlaqələrinin coğrafi quruluşunu da qənaətbəxş hesab etmək olmaz. Lakin düşünürəm ki, son dövrlərdə artıq qeyri-neft sektoruna diqqətin gücləndirilməsi öz inkişafını aydın şəkildə göstərməyə başlayıb. 2020-ci ilin ilkin məlumatlarına əsasən, 2019-cu ildə ölkənin ümumi daxili məhsulu əvvəlki illə müqayisədə 2,2 faiz artaraq 81681,0 milyon manata çatmışdır. Yola saldığımız ildə iqtisadiyyatın qeyri-neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyər 3,5 faiz, neft-qaz sektorunda isə 0,4 faiz artmışdır. ÜDM-in 41,4 faizi sənaye, 10,0 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 7,3 faizi tikinti, 6,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,7 faizi kənd və meşə təsərrüfatı, balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrində, 16,7 faizi digər sahələrdə istehsal edilmiş, məhsula və idxala xalis vergilər isə ÜDM-in 8,7 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM isə 8247,0 manat olmuşdur.

Azərbaycan iqtisadiyyatının dünya bazarından asılılığının yüksək olduğunu nəzərə alaraq, qeyri-neft sektorunun fərqli sektorlarının inkişaf etdirilməsi çox önəmli faktordur. Xarici ticarət şərtləri hər il Azərbaycanın xeyrinə dəyişsə də, bunu birmənalı şəkildə müsbət hal kimi qiymətləndirmək olmaz (**diaqram 3**).




***Diaqram 3.***

**Nəticə.** Araşdırmaların nəticəsi olaraq onu qeyd etmək olar ki, Azərbaycanın dünya bazarlarında mövqelərinin zəifliyi əsasən, milli istehsalın rəqabətqabiliyyətinin aşağı səviyyədə olması ilə yanaşı, ölkənin qeyri-neft sektorunda ixrac potensialının inkişafının və ixracın stimullaşdırılması üzrə məqsədyönlü və ardıcıl siyasət tədbirlərinin həyata keçirilməsinə də lazımi diqqət yetirilməməsindən irəli gəlirdi. Lakin bu gün deyə bilərik ki, bu sahədə çox böyük işlər görülür və bu problemlərin həlli istiqamətində böyük addımlar atılır. Aydındır ki, bu sahədə işlər aparılmasa xarici investorlar üçün maraqlı olan yanacaq-xammal kompleksinin birtərəfli qaydada inkişafına, xarici iqtisadi əməkdaşlığın "müstəmləkə" strukturunun möhkəmlənməsinə yol aça bilər. Qeyd etmək lazımdır ki, ixracın iqtisadi artıma stimullaşdırıcı təsiri əldə edilən gəlirlərin artım potensialı yüksək olan sahələrin canlandırılmasına və qabaqcıl texnologiyalı yeni istehsalların qurulmasına yönəldilməsi şərti daxilində baş verə bilər. Başqa sözlə desək, sırf xarici iqtisadi tənzimləmə tədbirləri vasitəsi ilə dünya təsərrüfatına inteqrasiyanın struktur problemlərinin həll edilməsi mümkün deyildir. Həmin vəzifənin icrası sahə-struktur prioritetlərinin reallaşdırılmasını hədəfləyən sənaye siyasətinə əsaslanmalıdır.

## ƏDƏBİYYAT

1. Əlirzayev Ə.Q. Azərbaycanda sahibkarlığın inkişafı problemləri və həlli yolları. Bakı, 2000.
2. Əliyev A.A., Şəkərəliyev A.Ş. Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti. Bakı, 2002.
3. Dadaşov İ.Ş. Sənayedə özəlləşdirmə aparılması mexanizminin təkmilləşdirilməsi istiqamətləri. İqtisad elmləri: nəzəriyyə və praktika. Bakı, 2002.
4. Экономика (учебник). Москва, 1999.
5. Кудров В.М. Мировая экономика. Москва, 1999.
6. Домичев В.И. Международная торговля. Москва, 2000.
7. The world Bank Global Economic Prospects and the Developing Countries. 2002.
8. İqtisadi nəzəriyyə (dərslik). T.S.Vəliyev, Ə.R.Babayev və M.X.Meybullayevin ümumi redaktəsi ilə. Bakı, 2001, 684 səh.
9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci ildə fəaliyyəti haqqında hesabat. Bakı, 2006, 144 səh.
10.https://www.stat.gov.az/source/trade/
11.https://www.azerbaijans.com/content_-730_az.html
12.https://www.stat.gov.az/source/trade/
13.https://az.wikipedia.org/wiki/Xarici_ticar%-C9%99t_siyas%C9%99ti
14.https://www.customs.gov.az/

**S.Allahverdiyeva**

### Improving the mechanisms for regulating azerbaijan's foreign trade relations

**Abstract**

The task facing our country is, first of all, not to expand international economic cooperation, but to integrate organically into the global economy based on dynamic comparative advantages in accordance with our existing potential. Thus, the problem of expanding and developing foreign economic relations in modern times must be solved in conjunction with the implementation of structural restructuring of the country's economy.

**С.Аллахвердиева**

### Совершенствование механизмов регулирования внешнеторговых отношений Азербайджана

**Аннотация**

Перед нашей страной стоит задача, прежде всего, не расширять международное экономическое сотрудничество, а органично интегрироваться в мировую экономику на основе динамических сравнительных преимуществ в соответствии с имеющимся у нас потенциалом. Таким образом, проблема расширения и развития внешнеэкономических связей в современное время должна быть взаимно решена путем осуществления структурной перестройки экономики страны.